BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 Sosial-siyasi elmlər seriyası 2011

UOT 159.956

# İNTUİSİYA: İNTELLEKTUAL YÜKÜ VƏ İDRAKİ İMKANLARI
## (İntuisiyaya yeni baxış)

**K.N.QƏHRƏMANOVA**
***Bakı Dövlət Universiteti***
***K.N.Kaxramanova@yahoo.com***

*Məqalə insan psixikasının sirlərlə örtülmüş, ən müəmmalı və çətin anlaşılan problemlərindən olan intuisiya probleminə, onun məntiqi-qnoseoloji təhlilinə həsr olunmuşdur.*

*Məqalədə intuisiya probleminə yeni rakursdan yanaşılmış və bu kontekstdə onun bir sıra yeni cəhətləri açıqlanmışdır. Məlumdur ki, indiyədək intuisiya problemi yalnız şüuraltı hadisə kimi, qeyri-şüuri fenomen kimi öyrənilmişdir. Məqalədə isə oxucuya belə bir fikir əxz edilir ki, intuisiya yalnız psixikanın qeyri-şüuri sferasında kök salmamışdır. İntuisiya bütün psixika prosesini yuxarıdan aşağıya keçən element olub, onun bütün sahələrində fəaliyyət göstərir. Bu baxımdan intuisiya həm altşüur, həm şüur, həm də fövqəlşüur sferalarda təzahür edir. Məqalədə görkəmli rus neyro-fizioloqu P.V.Simonovun şüurun yeni strukturu haqqında konsepsiyasına söykənən müəllif psixikanın hər üç sferasında intuisiyanı və onun sahələr üzrə spesifikasını araşdırır. Məqalənin diqqətçəkən məsələlərindən biri də böyük hind filosofu S.Radhakrişnanın nəzəri yaradıcılığı timsalında intuisiya probleminin bir sıra cəhətlərinə aydınlıq gətirilməsidir. Məqalədə müxtəlif bölgü prinsipləri əsasında intuisiyanın müxtəlif növlərinin təsnifatı verilir. P.V.Simonovun, M.Q.Yaroşevskinin, A.N.Petrovun ən yeni tədqiqatlarının nəticələrindən istifadə edən müəllif şüurun altşüur, şüur və fövqəl-şüur elementlərinə müvafiq olaraq intuisiyanın hissi, intellektual, mistik formalarını diqqətə gətirir və onların hər birinin sistemli təhlilini verir.*

**Açar sözlər:** intuisiya, şüur, şüuraltı, qeyri-şüur, sistemli təhlil, özünüdərketmə

Müasir elmin problemlər içərisində intuisiya problemi qədər mürəkkəb, ziddiyyətli, qeyri-müəyyən bir problem tapmaq çətin ki, mümkün olsun (4, 3). Nəzəri təfəkkürdə və elmi tədqiqatda yaratdığı çətinliklərlə yanaşı danışıq dilimizdə yaratdığı bəzən yanılmalara görə intuisiya anlayışını bir zamanlar hətta lüğət tərkibindən də çıxarmaq istəmişlər. Amma belə bir əməliyyat da intuisiya fenomeninin dərkində xüsusi səmərə verə bilməzdi, belə ki, bu anlayış istər danışıq dilimizdə, istərsə xüsusi elmi leksikonumuzda elə möhkəm kök salmışdır ki, onsuz sadəcə keçinmək mümkün deyil. İntuisiya anlayışına münasibətdə bir cəhəti də nəzərə almaq lazımdır ki, bu termin müxtəlif ipostasiyalarda işlənməklə, həm də insanın müxtəlif qabiliyyətlərini: bir halda onun rasional idraka qədərki qabiliyyətini (hissi intuisiya), digər halda fövqəlrasio-

nal qabiliyyətini: öncəgörmə, irəlicədən hiss etmə, parapsixologiya və s. (mahiyyət intuisiyası, xalis intuisiya), üçüncü bir halda isə mistik intuisiyanı ifadə edir (8, 6-9). Buna görə də hazırda intuisiya anlayışının mənası üzrə filosof ilə alimlər arasında vahid rəy, razılaşma, birmənalılıq yoxdur. Filosof üçün intuisiya əqlin hissdən və təfəkkürdən fərqli elə bir qabiliyyətidir ki, hər bir insan onun vasitəsilə həll etmək istədiyi, lakin mövcud üsullar əsasında həll edə bilmədiyi mürəkkəb və çətin məsələnin qəfil və dəqiq həllinə nail olur. Təbiət alimlərinin isə intuisiyaya münasibəti filosoflarınkından fərqlidir, belə ki, hər bir alimi hazır ideyalar, elmə məlum həqiqətlər deyil, ağır zəhmət hesabına, böyük çətinliklər bahasına qazanılan naməlum, qeyri-dəqiq biliklər, sürətli fraqmental əqli nəticələr daha çox maraqlandırır. Belə nəticələr isə qismən də olsa intuisiyalar vasitəsilə qazanılır.

«İntuisiya» latın sözü olub (intuito), hərfi mənası «hisslərlə həqiqətə nail olmaq» deməkdir (7, 5).

İntuisiya şüurun digər formalarından onunla fərqlənir ki, insan intuisiya vasitəsilə hər hansı bir hadisəni özünün daxili orqanlarının təsirinin hərəkətini hiss etmədən insan qrupunun, xalqların, dövlətlərin, özünün düşə biləcəyi situasiyanı irəlicədən aydın görmək imkanı qazanır. Məsələn, məşhur bolqar öncəgörəni Vanqa Sovetlər Birliyinin dağılacağını (1991-ci il dekabr) bu hadisə baş verməzdən bir ay əvvəl böyük bir dəqiqliklə söyləmişdi. Bütün elmi mərkəzlərdən kənarda, ucqar bir kənddə yaşayan savadsız kor qadının SSRİ kimi qüdrətli bir dövlətin ölüm tarixini böyük bir dəqiqliklə söyləməsi intuisiyanın ecazkar sirlərindən biri idi.

Zəmanəmizin görkəmli neyrofizioloqu akad. N.P.Bexteryeva Vanqa ilə ilk görüşünü belə xatırlayır: «Mən gəldiyim maşını Vanqanın evindən xeyli aralı saxlayıb, tozlu kənd yolu ilə öncəgörənin mənzilinə yaxınlaşdım. Vanqa mənim ayaq səslərimi eşidə bilməzdi. Mən Vanqanın evi qarşısında sıralanmış adamlara yaxınlaşıb bir kişidən sonra növbəyə durdum və bu zaman Vanqanın səsini eşitdim: «Mən sənin gələcəyini bilirdim, Natalya, kişinin arxasında gizlənməyə çalışma, evimin hasarına yaxınlaş» (2, 214-215). Burada bir neçə təbii sual doğur: Vanqa ona tanış olmayan bir qadının adını söyləyəndə və onun növbəyə kimdən sonra durduğunu dəqiq açıqlayanda, görəsən, hansı bəsirətə malik idi? Vanqa daha sonra köməkçilərindən birini görkəmli alimin yanına göndərib, onu azacıq sonra qəbul edəcəyini bildirəndə, sözsüz, insanların əksəriyyəti üçün bu «öncəgörənlik» bir açılmamış müəmma, qapalı bir sirr olaraq qalırdı. Bu bir həqiqətdir ki, yalnız adi adamlar deyil, hətta tarixin böyük mütəfəkkirləri belə bir «cadugərin» fenomenal qabiliyyəti qarşısında çaş-baş qalmışlar.

İntuisiya problemini fəlsəfi irsi son dərəcə zəngindir. Elm tarixində çox az problem tapılar ki, öz təkamülündə intuisiya problemi qədər məzmun və keyfiyyət dəyişikliyinə uğramış olsun. İntuisiya problematikasının inkişaf dinamikasını izləmiş olsaq onun ətrafında yaranıb, bəzən bir-birini istisna edən müxtəlif konsepsiyaların, fikir çalarlarının, rasional və qeyri-rasional, şüuri və

qeyri-şüuri nöqteyi-nəzərlərin formalaşmasının şahidi olaraq.

Bəşəriyyətin bir çox dühaları min illər ərzində intuisiya müəmmasını açıqlamağa çalışmışlar. Platon intuisiyanın mahiyyətinin «eydosların» mənəvi seyrinin xatırlanmasında görür, Aristotel isə belə güman edirdi ki, yüksək tərtibli anlayışlar bilvasitə deyil, bilavasitə səciyyə daşıyır. Dekarta görə, intuisiya insanlara bilavasitə əqillə görə bilmədiklərini təsəvvür etməyə imkan verir. Həm də bu halda o, intuisiyanı həqiqətin daha aydın və qəti sübutu kimi əqlin bütün formalarından yüksək tuturdu. R.Dekart yazırdı: «İntiusiya – əqlin təbii işığı ilə yaradılan və özünün sadəliyi üzündən deduksiyadan daha səhih görünən diqqətli əqlin möhkəm anlayışıdır» (5, 86). Dekart intuisiyanı intellektlə əlaqələndirdiyindən müasir intuisiya problematikasında filosoflar onun iki növünü: intellektual intuisiya (məşhur sovet neyrofizioloqu P.V.Simonovun təbirincə «yaradıcı intuisiya») və hissi intuisiya bir-birindən fərqləndirirlər.

Fəlsəfə tarixində özünə yer almış ardıcıl intellektual intuivistlərdən biri də B.Spinoza olmuşdur. Spinozanın təbirincə intuisiya biliyin hissi və məntiqi formalarından yüksəkdə duran ali formasıdır. Adekvat ideyaları dərk etməyə imkan verən intuisiya həqiqətin immanent meyarı funksiyasını yerinə yetirir. İntuisiya anlayışının idrakın əsas pillələri (hissi idrak və məntiqi idrak) ilə bağlayan Spinoza şeylərin mahiyyətinin intuisiya vasitəsilə bilavasitə dərkini idrakın ən yüksək səviyyəsi hesab edirdi. Spinoza görə şeylərin mahiyyətinin adekvat və təhlükəsiz dərki yalnız intuisiya vasitəsilə baş verə bilər (15, 327-328). Spinozanın qənaətinə görə ən ymumi anlayışların (kateqoriyaların) yaranması da yalnız intuisiya yolu ilə mümkündür.

A.Berqsonun da intuisiya haqqında fikirlərində maraqlı məqamlar vardır. Berqsonun fikrincə, insanın idrakı özünün tamlığını və gözəlliyini intuitivcəsinə dərk etdiyi incəsənətdə tapır. Berqsona görə intuisiya şəxsiyyətdə yaranan spontan yaradıcılıq həvəsinin də mühüm şərtlərindən biridir. Onun dərin inamına görə insan onun zəkasını zəifdədən qüvvələrdən nə qədər çox azad olarsa və əksinə, onun qəlbinin dərinliklərində kök salan intiutiv anlamının elitarlığı və «saflığı» nə qədər yüksək olarsa o, bədii cəhətdən bir o qədər istedadlı olar (3, 240).

Rus filosofu N.O.Losski ruhun yüksək qabiliyyətini intuisiya ilə bağlayır və yazırdı: «Bu təlimə görə (intuisiya təlimш – Q.K.) hər cür bilik mənim məxsusi «mən»im vasitəsilə predmetin mənim baxış sferama daxil edlimısidir (9, 234). N.O.Losski intuisiyanın üç növünü fərqləndirir: hissi intuisiya, intellektual intuisiya və mistik intuisiya. Onun fikrincə, intuisiyanın bu növlərinə uyğun olaraq gündəlik danışıqda «qabaqcadan hiss etmə, «qabaqsöyləmə», «nurlanma» terminlərindən istifadə olunur.

Hissi intuisiya və ya qabaqcadan hissetmə ətraf aləmdə inamla istiqamət götürməyi bacaran, xoş və kədərli hadisələri irəlicədən söyləməyi bacaran az sayda insanların yüksək hissiyyatının ifadəsidir. Bir çox alimlər belə insanların hissiyyatını «ifrat hissiyyat» adlandırır.

«Qabaqsöyləmə» daha tez-tez hesablamanın elmi metodlarına əsaslanır.

Məsələn, XVII əsrin görkəmli alman astronomu və riyaziyyatçısı İ.Kepler riyazi hesablamalar yolu ilə sübut etmişdir ki, ulduzların orbitləri çevrə olmayıb, elliptik xarakterlidir. Bu qabaqsöyləmə zamanı onun nümayiş etdirdiyi intuisiyanı intellektual intuisiya adlandırmaq olar.

Nurlanma intuisiyası adətən əlverişsiz situasiyalarda: yuxuda olarkən, kitab mütaliyə edərkən, teatrda tamaşaya baxarkən, meşədə gəzişərkən baş verə bilir. Musiqi tarixində belə hadisələr tez-tez baş verir, musiqi fikri bəstəkara gözləmədiyi halda, məsələn, yuxuda gələ bilir. Məsələn, italyan bəstəkarı Cüzeppe Tartini bir dəfə yuxuda şeytanın musiqi aləminə məlum olmayan heyranedici bir melodiyanı skripkada ifa etdiyini görmüş və yuxudan oyandıqdan sonra onu nota köçürərək özünün məşhur əsərlərindən biri olan «Şeytan zəngulələri» skripka sonatasına daxil etmişdir.

N.A.Berdyayev «Özünüdərketmə» adlı avtobioqrafik kitabında bu faktı aşağıdakı misallar ildə təsdiqləyir: nurlanma filmə tamaşa edərkən, hər hansı bir kənar şəxslə söhbət zamanı, hər hansı bir qəbul zamanı və i.a. baş verə bilər. O, bir dəfə dilxorçuluq vəziyyətində özündə nurlanmaya və yaradıcı yüksəlişə keçid kimi bir hadisəni qeydə almışdı: «Hadisə yayda kənddə baş vermişdi. Mən çarpayıda uzanmışdım, səhərə yaxın bədənim yaradıcılıq yüksəlişi ilə titrəməyə başladı və bu zaman güclü bir işıq şüası məni nurlandırdı... Bu anlarda yaşadığım yaradıcılq nurlanması sonralar öz ifadəsini mənim «Yaradıcılığın mənası. İnsanın özünə haqq qazandırmaq təcrübəsi» kitabında tapdı. Bu kitab böyük bir ruh yüksəkliyi ilə, demək olar ki, ekstaz vəziyyətdə yazılmışdı. Bu kitabda mənim əsas mövzum, insan haqqında ilkin intuisiyam öz əksini tapdı» (1, 190).

Berdyayev II Dünya müharibəsinin qaçılmazlığını da irəlicədən söyləmiş və göstərmişdi ki, müharibədən yalnız onu doğuran səbəbləri aradan qaldırmaq yolu ilə yaxa qurtarmaq olar. Berdyayev intuisiyaya hərəkətsiz bir şey kimi deyil, ruhun durmadan inkişaf edən və yeni-yeni nurlanmalarla zənginləşməsi halı kimi baxırdı. Həm də bu nurlanmalar, bir qayda olaraq, birdənbirə deyil, şüurun insan marağını cəlb edən hər hansı bir mövzu üzərində uzun sürən, üzücü işindən sonra yaranırdı. Ani nurlanmanın baş verdiyi andan etibarən insanda yaradıcı ekstaz başlanır.

Görkəmli sovet neyrofizioloqu P.V.Simonov kimyəvi elementlərin dövrü cədvəli ilə əlaqədar D.İ.Mendeleyevə yuxuda nazil olmuş nurlanmaya aydınlıq gətirərək qeyd edir ki, «Mendeleyevin yuxuda kimyəvi elementlərin dövrü cədvəlini görməsi, heç də təsadüfi olmamışdır. Əgər bundan əvvəl Mendeleyevin kimya sahəsində diqqətçəkən işləri olmasaydı, Mendeleyev bu sahədə zəngin bilik toplamasaydı, bu nurlanma da baş verməzdi» (13, 300).

XX əsr görkəmli hind filosofu və siyasi xadimi S.Radhakrişnanın intuisiyaya dair baxışları xüsusi maraq kəsb edir. Bu böyük alimin intuisiyanın şərhində nümayiş etdirdiyi mövqe dünyanın ən qədim fəlsəfi sistemlərindən olan zəngin və çoxaspektli hind fəlsəfəsinin bütün tarixi gedişatına əsaslanır. Əqidəli filosof və bəsirətli insan olan Radhakrişnan belə güman edirdi ki,

elmdə həqiqətə aparan yol «ideya və reallığın dualizminə aparan yolun aradan qaldırılmasından keçir. Məhdud məntiqi təfəkkürün kateqoriyaları vasitəsilə insanın və ilahi varlığın qovuşmasını dərk etmək istədikdə biz hökmən fikirlərin, əksliklərin, antinomilərin toqquşmasının sərhədlərindən kənara çıxmalıyıq. Fikrimiz intuisiya vasitəsilə təkmilləşəndə biz reallıq haqqında təsəvvürlərə sahib oluruq» (12, 146).

Bütün əzəmətinə baxmayaraq fikrimizcə böyük hind filosofu burada iki mühüm yanlışlığa yol verir: əvvəla o, insan ilə ilahi idrakın bir-birinə qovuşmasını mümkün sayır, halbuki, bu sintez yalnız o halda mümkün ola bilərdi ki, insan idrak prosesində hüdud hala çatmış olaydı, bu isə mümkün deyil, zira dünya bu intensivliyinə və ekstensivliynə görə sonsuz, idraki-qnoseoloji baxımdan hüdudsuzdur. İkincisi, Radhakrişnan belə güman edir ki, idrakın mükəmməlləşməsi yalnız intuisiya vasitəsilə baş verə bilər. Bu halda unudulan cəhət odur ki, intuisiya da sonsuzluğun sirlərinə nüfuz etməkdə acizdir, belə ki, intuisiya insan beynində yaranır, beyin isə ali əsəb orqanı olmaq etibarilə sonlu və məhduddur. Nəzərə almaq lazımdır ki, dünyanın məkan və zaman etibarilə sonsuzluğu və hüdudsuzluğu üzündən nəinki ayrıca bir fərd, hətta bütün bəşəriyyət belə öz zəngin ictimai praktikası və dolğun idrak nəzəriyyəsi ilə dünya haqqında mütləq biliklər qazana bilməz.

Radhakrişnan dünya mistiklərinin nüfuzuna ürəkdən inanmış, idrak və şüur məsələlərinin həllində onların dini-idealist dünyagörüşünə söykənmişdir. O, yazırdı: «Bu fakt (insanın allaha qovuşması) bütün dünya mistikləri tərəfindən təsdiqləyir. İnsana əqli məsələlərin həllinə imkan verən ilahi nurlanma və ya mistik intuisiya xasdır, insan bu intuisiya sayəsində intellektin fərqləndirilməsindən kənara çıxaraq əqli məsələləri həll edir. Seçilmiş ruhlar fikri və intellektual reallığın yüksəkliklərini fəth edir, məhz bu intuitiv şüurun sayəsində eşidilməzlər eşidilənlərə, qavranılmayanlar qavranılanlara, naməlumlar məlumlara çevrilir. Əqlin irəli sürdüyü problemlər yalnız o hallarda öz-özünə həll edilir ki, biz mülahizələr xaricinə çıxıb ilahi həyat sürməyə başlayırıq» (12, 148). Lakin tarixdən məlumdur ki, heç bir dini mütəfəkkir və ya dini xadim ilahi kamillik kəsb etməmiş, dünyanın dərkində və şüurunun inkişafında ilahiyə qovuşmağa nail olmamışdır.

Göründüyü kimi, Radhakrişnanın intuisiya haqqında düşüncələri sələflərinin düşüncələrindən fərqlənmir: intuisiya birbaşa idrak, bilavasitə hisslərlə qazanılan əqli nəticədir. Bu halda insanın ruhu dünyanın dərki içərisində, onun canlı seyrində əriyir. Dünyanın intuisiya formasında görünməsi insanı şəhvət və ehtraslardan, əzab və əziyyətlərdən azad edir. Ruh ekstaz vəziyyətdə özünü gördüyü obyektlə birləşməsi halda hiss edir. İnsan ruhunun bütün cəhdləri, onun bütün intellektual tələbləri, emosional arzuları, iradə idealları həyata keçir (12, 149-152). Böyük filosof burada artıq dünya dini olmaq etibarilə buddizmin mövqeyini dərindən dərk edir. Lakin burada bir tarixi həqiqəti də nəzərə almaq lazımdır ki, buddizmin banisi öz fəaliyyətində yalnız dünyəvi nurlanmanı dərk etdikdən sonra Buddaya çevrilmişdir. Halbuki, açıq etiraf-

larına görə şahzadə Şakyamuninin şəxsi taleyi o qədər də ürək açan olmamış, bu böyük insanın həyatı əzab və əziyyətlər içərisində keçmişdir. Yaşı 80-ə çatdıqda onun təfəkkürü və fikirləri öz saflığını qoruyub saxlasa da, bədəni öz təravətini, gücünü itirərək ölgün vəziyyətə düşmüşdür. Özü bunu aydın görür, tələbəsi Anandaya etirafını belə səsləndirirdi: «Mən artıq qoca və gücsüzəm, Ananda; yer həyatım sona çatmaq üzrədir, axı mənim artıq 80 yaşım var. Mən qırılmış araba kimiyəm, həyatın tozlu-torpaqlı yollarında cırıldaya-cırıldaya sürünürəm» (6, 120-121).

Yer üzərində yaşamış ən müdrik insanlardan birinin, mədəniyyət tarixinə buddizm adı ilə daxil olmuş dünya dininin banisinin bu etirafı Radhakrişnanın belə bir fikrini təkzib edir ki, guya intuisiya vasitəsilə nurlanma insanı hər cür əzab və əziyyətlərdən azad edir.

S.Radhakrişnan oxucusunu inandırmağa çalışır ki, mistik nurlanma digər insanlara verilə bilməyən «təcrübi qavrayış» səviyyəsində durur. Burada artıq biz, cavablandıra bilmədiyimiz belə bir sualla qarşılaşırıq: əgər mistik nurlanma insanlara verilə bilməyən «təcrübi qavrayışdırsa», bəs o halda nurlanma kimi çıxış edən din insanlar arasında necə yayılmışdır? Burada böyük filosof etiraf etməyə məcbur olur ki, «biz bu təcrübəni yalnız metafora vasitəsilə təsvir edə bilərik. Təklif olunan ixtiyari metafora haqqında isə biz deyə bilərik ki, bu o deyil, bu o deyil» (12, 148).

Ümumiyyətlə, Radhakrişnanın intuisiya haqqında baxışlarının başlıca nöqsanı bundan ibarətdir ki, o da bir sıra digər filosoflar kimi təbiətşünaslığın, o cümlədən, fiziologiyanın, biologiyanın, kibernetikanın, genetikanın, informatikanın materiallarına deyil, sırf fəlsəfi və dini mənbələrə söykənir. Bununla da Radhakrişnan idrakın digər növləri ilə müqayisədə intuisiyanın səviyyə yüksəkliyini sübuta çalışarkən heç də bütün suallara cavab verə bilmir.

Təbiətşünaslığa müraciət intuisiyanın dərkində yeni imkanlar açaraq onun mahiyyətini, şüurun və altşüurun strukturunda yerini və rolunu açıqlamağa əsas verir.

Məlumdur ki, böyük rus fizioloqu İ.P.Pavlov şərtsiz və şərti reflekslər haqqında təlim yaratmışdır. Şərtsiz reflekslər anadangəlmədir. İtin aclıq duyması orqanizmin qidaya olan tələbatıdır. V.M.Bexterev şərtsiz reflekslərin mövcudluğunu «beyin hüceyrələrində orqanizmin qida məhsulları isə təchiz edilməsində enerji çatışmazlığı ilə» izah edir. Belə hallarda heyvan da, insan da qida axtarır. Onların orqanizmində qidaya dövrü tələbat yaranır.

Şərti refleks isə orqanizmdə təlim vermək, öyrətmək, tərbiyə etmək yolu ilə yaradılır. Aclıq duyğusu yaşayan it ona yemək gətirən laborantın addım səslərini eşitdikdə və nəhayət onu eksperiment otaqında gördükdə, qəbul edəcəyi qidanı görmədikdə belə onda qidaya qarşı mədə şirəsi ifraz olunur. Belə hallarda şərti refleks intuisiyanı xatırladır. Qapının çırpılması, tanış addımlar, tanış adamın görünməsi – itin bütün əvvəlki təcrübəsi onun arzu etdiyi bir şeydən – ona yemək gətirilməsindən xəbər verir. Pavlovun təcrübələri sübut etmişdir ki, intuisiyanın əsasında insanın və heyvanın real təcrübəsi durur

(10, 22-23). O, buradan intuisiyanın canlı orqanizmlərin həyatında əhəmiyyəti haqqında çox mühüm nəticə çıxarmışdır: intuisiya determinə olunmuşdur.

Tədqiqatlar göstərir ki, intuisiyanın da yaranma mexanizmi eynilə şüurun formalarının yaranma mexanizmi kimidir: determinatorların elektromaqnit rəqsləri əsəb cərəyanına çevrilərək orqanizmin periferik reseptorlarını yaradır. Bu cərəyan afferent (yüksələn) naqillərlə hərəkət edərək beynin müvafiq sahələrinə çatdırıldıqda yaratdıqları boşalmalarla əsəb cərəyanını efferent vəziyyətə gətirirlər. Efferent vəziyyət müxtəlif hərəkətetdirici əsəblərə, o cümlədən nitqə doğru istiqamətlənərək təfəkkürü, səsli nitqi, yəni şüuru, o cümlədən intuisiyanı yaradırlar.

Fizioloqlar intuisiyanın yaranmasının daha ümumi səbəblərini də aşkar etmişlər: Canlı orqanizmlərin yaşayış şəraitinin dinamiki dəyişməsi və onların tədricən bu şəraitə uyğunlaşması. Pavlov «İnsan beyninin böyük yarımkürəciklərinin fəaliyyəti haqqında mülahizələr» əsərində qeyd edirdi ki, «tamamilə aydındır ki, orqanizmin bütün fəaliyyəti qanunauyğun olmalıdır. Əgər heyvanlar xarici aləmə dəqiq uyğunlaşa bilməsəydilər onların mövcudluğu tezliklə və tədricən kəsilərdi... Orqanizm yalnız o vaxtadək mövcud ola bilir ki, o hər an ətraf şəraitlə tarazlaşmış olsun. Bu tarazlıq pozulan kimi orqanizm bir sistem kimi mövcudluğunu başa vurur» (10, 22-23).

Afrika faunasının tədqiqatçıları hər il on minlərlə heyvanın kontinentin Mərkəzi rayonlardan şimal rayonlarına miqrasiya etməsini müşahidə edirlər. Onları miqrasiyaya məcbur edən səbəb Mərkəzi Afrikada qida məhsullarının çatışmaması və heyvanlarda əsrlərdən bəri mövcud olan belə bir intuisiya əsrlərdən bəri mövcud olan belə bir intuisiyanın mövcud olmasıdır ki, Şimali Afrikada yem həmişə vardır. Bütün vəhşi heyvanlar yaxşı bilirlər ki, insan onların düşmənidir. Lakin aclıq illərində onlar yaşayış məntəqələrinə hətta böyük şəhərlərə belə yaxınlaşırlar, çünki intuitivcəsnə anlayırlar ki, düşmənlə qonşuluqda yem tapa bilərlər.

İ.P.Pavlovun şərtsiz və şərti reflekslər təlimi sonralar onun şagirdləri və ardıcılları P.K.Anoxin, P.V.Simonov, N.P.Bexteryeva və b. tərəfindən qəbul edilib, yaradıcılıqla inkişaf etdirilmişdir.

Tədqiqatlar göstərir ki, bir sıra şərtsiz reflekslər də intuitiv səciyyə daşıyır. Paflov dəfələrlə qeyd etmişdir ki, heyvanlar da azadlıq və tədqiqatçılıq refleksinə malikdir: bir çox heyvanlar və xüsusilə yırtıcılar azadlıqlarının itirilməsinə sərt müqavimət göstərir, qəfəsdən qopmağa, itirilmiş azadlıqlarını qaytarmağa çalışırlar. Ovçular tez-tez belə bir faktla üzləşirlər ki, tələyə düşmüş tülkü və ya canavar azadlığa çıxmaq naminə öz pəncələrini gəmirməli olurlar. Qeyd edək ki, belə hallarda azadlığın şərtsiz refleksi intuisiya ilə üzvi surətdə birləşir.

Heyvanlarda tədqiqat refleksləri də intuitiv xarakter daşıyır. Yad mənzilə düşmüş ev pişiyi özünü çox ehtiyatlı aparır, tanış olmayan əşyalara diqqətlə baxır, bütün künc-bucağı iyləyir, yad səslər eşitdikdə gizlənməyə çalışır. Onun həyat təcrübəsi göstərir ki, özünə yad şəraitdə o, həyatı üçün heç bir təhlü-

kənin olmadığına əmin olana qədər özünü tam ehtiyatlı aparır. Belə hallarda şərtsiz refleks intuisiya ilə birləşir.

İnsan şüurunda intuisiya ilə qohum olan şüuraltı və fövqəlşüur səviyyələri fərqləndirilir. Bu problemlə sovet neyrofizioloqu P.V.Simonov xüsusilə ciddi məşğul olmuşdur. O, elmi dairələrdə yaxşı tanınan «Əsaslandırılmış beyin. Ali əsəb fəaliyyəti və ümumi psixologiyanın təbii-elmi əsasları» adlı məşhur əsərində o, şüuraltı və fövqəlşüur səviyyələri fərqləndirərək, onların nisbi müstəqilliyini və şüurda əhəmiyyətini tutarlı dəlillərlə əsaslandırır. O, yazır: «Psixi dərk olunmamışın psixikaya münasibətinə gəldikdə isə qeyd etməliyik ki, onun şüuraltı və ya fövqəlşüur olmasından asılı olmayaraq funksiyalaşması şüurun fəaliyyəti ilə qırılmaz bağlıdır. İnsanın təkamülü və onun sonrakı mədəni-tarixi inkişafı prosesində şüuraltı və fövqəlşüur fenomenləri şüur ilə eyni vaxtda yaranıb, onunla daima qarşılıqlı təsirdədir. Onlar şüursuz sadəcə mövcud deyildir (13, 295). Simonov sözünə davam edərək yazır: «Psixikanın geniş əhatəli dərk olunmamış sferasında iki qrup hadisəni fərqləndirmək vacibdir. Bu birinci qrupa dərk olunmuş və ya müəyyən şəraitdə dərk oluna biləcək hadisələr daxildir. Bu qrupa, hər şeydən əvvəl, yaxşı avtomatlaşdırılmış və buna görə də, dərk olunmayan vərdişlər və şüur sferasından sıxışdırılıb çıxarılan və mahiyyətləri yalnız psixoterapevt-həkimin xüsusi səyləri sayəsində ayrılan hadisələr daxildir. Şüuraltı sferaya həmçinin subyektin dərindən mənimsəmədiyi, tənzimləyici funksiyası «vicdanın səsi», «ürəyin çağırışı», «vəzifə borcu» kimi anlayışlarda səslənən sosial normalar da daxildir... Biz şüuraltı sferaya həmçinin informasiyaların yaradılması ilə əlaqəsi olmayan, lakin indiyədək toplanmış təcrübədən istifadə edən təzahürlərini aid edirik» (13, 296). Təcrübəli pianoçu barmağı ilə hansı klavişi basacağını fikirləşmədən müəyyən edir və bütün əməliyyatları avtomatik həyata keçirir. Göründüyü kimi bu halda praktiki təcrübə intuisiyanın yaranmasının əsasını təşkil edir. Müşahidə etdiyi ulduzların orbitinin yaranması prinsipinə yaxından bələd olan astronom bu orbitin riyazi hesablanması təcrübəsinə söykənərək intuitivcəsinə yeni ulduzlar kəşf edir. Tanış marşrut üzrə hərəkət edən insan gedəcəyi istiqamət barəsində əsla düşünmür. Bu hərəkət intuitiv xarakter daşıyır. Zəhərli həşəratların və sürünənlərin sancdığı heyvan saysız-hesabsız otlar içərisindən xəstəlik törədən zəhərli mikrobları məhv edən bitkini asanlıqla tapa bilir.

Praktiki təcrübə canlı varlıqların genlərində möhkəmlənib, sonradan gələcək nəsillərə ötürülərək sanki onlara hansı otların faydalı, hansıların zəhərli olması barədə məlumat verir.

Simonov insan fəaliyyətində şüuraltının rolunu bunda görür ki, bu hadisə «şüuru əlavə itdən, daşınması mümkün olan yükdən azad edir. Avtomatlaşdırılması vərdiş və ya sosial norma olmasından asılı olmayaraq şüuraltı həmişə insanın əldə etdiyi və yaxşı mənimsədiyi hadisənin keşiyində durur. Fərdi mənimsənilmiş hadisələr məhz şüuraltı hesabına şərtsiz reflekslər üçün səciyyəvi olan imperativlik və sərtlik xüsusiyyətləri kəsb edirlər (13, 297-299).

Şüuraltı ilə şüur arasında sərhəd o dərəcə nazikdir ki, insan hər hansı bir hərəkəti avtomatik, düşünmədən icra etdikdə elə güman edir ki, belə hallarda onun şüuru tam fəaliyyətsizlik nümayiş etdirir. Halbuki belə düşüncə tərzi yanlış olub, qəbuledilməzdir: belə bir yanılma ilə insanlar konkret bir şəxsin «möcüzə» göstərdiyi və ya təbiət və ya cəmiyyətin fundamental bir qanununu kəşf etdiyi hallarda rastlaşır və belə qənaətə gəlirlər ki, insan (sehrbaz, dahi təbiətşünas) öz möcüzəsini və ya kəşfini ilahi qüvvənin və ya şeytanın (zərərli hərəkətlər və ya kəşflər) təsiri altında reallaşdırır.

«Fövqəlşüur» anlayışı da həmçinin şüurun xarakteristikası olub, onun struktur elementini təşkil edir. M.Q.Yaroşevski fövqəlşüuru «şüurüstü» adlandırır (16, 72-81).

Fövqəlşüuru adətən ya insanların ifrat dərəcədə həssas olan fəaliyyəti ilə, ya da elmi yaradıcılıqla bağlayırlar. Məs.: öncəgörən Vanqanın fəaliyyəti, Eynşteynin, Paulinin və b. alimlərin fəaliyyəti fövqəlşüura misal ola bilər. Alimlər belə güman edirlər ki, ifrat-şüurun sferasına ixtiyari yaradıcılığın ilkin mərhələləri, o cümlədən hipotezlərin, fərziyyələrin, gümanların yaradılması, yaradıcılq nurlanması da aid edilə bilər. Əgər şüuraltı şüuru əlavə işdən, öhdəsindən gəlmək mümkün olmayan yükdən qoruyursa, yaradıcı intuisiyanın dərkolunmazlığı şüuru əvvəllər toplanmış təcrübənin vaxtsız müdaxiləsindən, onun yüksək təzyiqindən qoruyur (11, 112-118).

Kəşflərin, ixtiraların baş verməsində yaxından iştirak edən fövqəlşüur eyni zamanda miflərin, inancların, əfsanələrin, xurafatın müxtəlif növlərinin yaradılmasında da mənbə rolunu oynayır. Fövqəl-şüurun burada rolu ondan ibarətdir ki, o insanlara dünya haqqında təcrübə və eksperimentlərdə öz təsdiqini tapmayan biliklərini, habelə onlara məlum olan və məlum olmayan situasiyalarda sosial davranış normalarını nizamlamağa imkan verir. Fövqəlşüurun əsasını insanların əvvəllər toplamış olduğu təcrübə təşkil edir. Bura insanların arzularında ifadə olunan tələbatları (quş kimi uçmağı öyrənmək cəhdi, insanların günəşə uçması haqqında miflər, əfsanələr, insanların xalça üzərində uçması, danışan sandıq – telefon, cisimləri özündə əks etdirən güzgü – televizor və s.), habelə təbiətin öyrənilməsi prosesində böyük kəşflərin, ixtiraların reallaşdırılması üçün alimlərin, ixtiraçıların bir araya gətirilməsi də daxildir. Buna misal olaraq guya Nyutona ümumdünya cazibə qanunu açmağa imkan vermiş almanı, D.İ.Mendeleyevə elementlərin dövrü qanununu kəşf etməyə əsas vermiş məşhur yuxunu və s. göstərmək olar.

Alimlərin həyatından gətirilən faktlar onları kəşflərə aparan elmi axtarışların heç də asan olmamasından, üzücü olmasından xəbər verir. P.V.Simonov bu münasibətlə yazır: «Kimyəvi elementlərin xassələri haqqında dərin və geniş biliklərə yiyələnmədən heç bir «generator ideya» dövrü qanunun kəşfinə gətirib çıxardı» (14, 231).

Qeyd edək ki, yaşadığımız günlərdə fövqəlşüur özünü heç də yuxarıda qeyd etdiyimiz kimi əfsanəvi formalarda nümayiş etdirmir. Fövqəlşüur hazırda təfəkkür və şüurun yeni səviyyəsinə doğru can atır. Məsələn, hazırda Mosk-

vada prof. V.M.Bronnikovun başçılıq etdiyi İnsan inkişafının Beynəlxalq Akademiyası fəaliyyət göstərir. Bronnikov və əməkdaşları insanın fizioloji və psixoloji aspektlərinin inkişaf etdirilməsi üzərində intensiv iş aparır və ümid edirlər ki, onların fəaliyyəti elə bir bioloji insan növü yaratmağa imkan verəcək ki, o telepatik qabiliyyətlərə, virtual görmənin yeni formalarına, məkan və zamanca daha geniş sərbəstliyə malik yaddaşa yiyələnəcəklər (11, 112-120).

Deyilənlərdən belə qənaətə gəlmək olar ki, intuisiya, heç də şüurun xüsusi bir təbəqəsi deyil. İntuisiya şüuru yuxarıdan aşağıya keçərək bir sıra hallarda onun müxtəlif təbəqə və formaları ilə qovuşan xüsusi mənəvi fenomenidir.

İntuisiyanı müxtəlif əsaslara görə bir neçə növə ayırmaq olar. Yuxarıda biz intuisiyanın hissi, intellektual və mistik formalarını nəzərdən keçirdik. Əməyin fiziki və əqli növlərinə uyğun olaraq intuisiyanı fiziki və intellektual növlərə də ayırmaq olar. İntellektual intuisiyanı da, öz növbəsində, iki qrupa: a) reallaşdırılması xüsusi fiziki gərginlik tələb edən intellektual intuisiyaya (müasir təyyarələrin uçuşları zamanı havada müxtəlif fiqurlar nümayiş etdirən as təyyarəçinin nəzarət etdiyi yüzlərlə cihazların onda yaratdığı ağır fiziki gərginliyi və b.) razılaşdırılması, xüsusi fiziki güc tələb etməyən intellektual intuisiya (məs.: kompyuterlə işləmə).

Digər bir məntiqi prinsipə görə intuisiyanı fərdi intuisiyaya, kollektiv intuisiyaya və ictimai intuisiyaya ayırmaq olar.

P.V.Simonov şüurun strukturunun yeni interpretasiyasını verir. A.İ.Yakovlev onu şüurun qnoseoloji-psixi interpretasiyası adlandırır. O, insanın ali əsəb fəaliyyətini üç səviyyəyə ayırır: şüuraltı, şüuri və fövqəlşüuri. P.Simonov yazır: «Əgər şüuraltı müəyyən ölçüdə K.Yunqun «fərdi qeyri-şüuri»si və Z.Freydin «Fövqəl-Mən»i ilə müqayisə oluna bilərsə, fövqəlşüurun dərk olunmanın psixika hissəsinin əvvəllər təklif olunmuş təsnifatında analoqu olmamışdır» (14, 230-240).

İntuisiya haqqında elmi axtarışlarımızı məqalə həcmində yekunlaşdırarkən qeyd etməyi vacib bilirik ki, yaşadığımız günlərdə biz intuisiya haqqında müəyyən gümanlarla danışsaq da, əminik ki, yaxın gələcəkdə onu da reflekslər, əsəb cərəyanı, orqanizmin fiziki, kimyəvi və digər reaksiyaları kimi dərindən öyrənmək imkanı əldə edəcəyik. Hələlik intuisiya haqqında elmi axtarışlar davam edir.

**ƏDƏBİYYAT**


1. Бердяев Н.А. Опыт философской автобиографии. М.: Наука, 624 с.
2. Бехтерева Н.П. Магия мозга и лабиринты жизни. М., СПБ, 2007, с.207-232.
3. Блауберг И.И., Бергсон А.Л. // АФЕ в 4-х т. Т. I. М.: ЮНИТА, 2000, 724 с.
4. Бунга М. Интуиция и наука. М.: Прогресс, 1967, 214 с.
5. Декорт Р.//Избранные произведения М.: Мысль, 1955, 628 с.
6. Икэда. Мой Будда. Земной путь Шакьямуна. М.: Прогресс, 1994, с.422.
7. Интуиция и научное творчество. Аналитический сборник. М.: ЮНИОН, 1981, с.362.
8. Ирина В.Р., Новиков А.А. В мире интуиции. М.: Наука, 1978, 174 с.

9. Лосский. Умозрение как метод философствования // На переломе. Философские дискуссии 20-х годов. Философия и мировоззрение. М.: Прогресс, 528 с.
10. Павлов И.П. Лекции о работе больших полушарий головного мозга//Поли.собр. соч. в 6-ти т. Т. IV, М-Л, 1947, 642 с.
11. Петров А.Н. Ключ к сверхсознанию. М.: ИНФАА, 1999, 264 С.
12. Радхакришнан С. Индейская философия. В 2-х т., Т. I. М.: Наука, 652 с.
13. Симонов П.В. Мотивированный мозг. Высшая нервная деятельность и естественнонаучные основы общей психологии. Изб. Труды. В 2-х т. Т. I, М.: ИНФРА, 2004, 576 с.
14. Симонов П.В. Созидающий мозг. Нейробиологические основы творчества. Изб. Труды. В 2-х т. Т. I, М: ИНФРА, 2004, 558 с.
15. Спиноза Б. Этика//Избр.произв в 2-х т. Т.I, М.: Прогресс, 1957, 568 с.
16. Ярошевский М.Г. Категориальная регуляция научной деятельности // Вопросы в философии, 1973, №11, с.72-81.

## ИНТУИЦИЯ: ИНТЕЛЛЕКТУАЛЬНЫЙ ПОТЕНЦИАЛ И ПОЗНАВАТЕЛЬНЫЕ ВОЗМОЖНОСТИ

**К.Н.ГАХРАМАНОВА**

### РЕЗЮМЕ

Статья посвящена одной из самых спорных проблем науки и философии – проблеме интуиции. Данная проблема сложна и многогранна, но статья посвящена именно анализу ее гносеологического аспекта. Общеизвестно, что проблеме интуиции посвящено много книг и статей, но пока что данная проблема остается окрытой. Несмотря на то, что существует определенное научное представление об интуиции, проблема о том, является ли интуиция подсознательной или она сверхсознательна, пока что, научно не определена. Цель статьи заключается в позитивном рассмотрении данной проблемы.

Вопреки установленной точке зрения в философии автор, опираясь на самые последние исследования, стремился установить, что феномен интуиции подвергал анализу не только в области подсознательной сферы, а также в процессах сознательных и сверхсознательных процессах. Автор дает классификацию интуиции и разделяет ее на чувственную, интеллектуальную и мистическую интуиции. В статье дается системный анализ каждой из этих форм интуиции.

**Ключевые слова:** интуиция, сознание, подсознание, бессознательное, системный анализ, самосознание.

## INTUITION: INTELLECTUAL LOAD AND CONSCIOUSNESS ABILITIES

**K.N.GAHRAMANOVA**

### SUMMARY

The article is devoted to the problem of intuition in gnoseological aspect which is considered to be one of the disputable problems in the philosophical outlook of the contemporary scientific intellect. Certain achievements have been gained in the study of the problem of intuition, but there is some truth yet to be disclosed. Firstly, intuition is an underconscious process. The other problem is whether this process belongs to consciousness or extraconsciousness. The main task of the article is to investigate this problem positively.

Basing on the recent investigations, the author studies the essence of the intuition phenomenon not only as an underconscious process, but also as an interconsciousness and overconsciousness process. Acting from the carried out investigations, the author gives a new classification of intuition such as sensual, intellectual and mythic intuition. All three kinds are systematically analyzed in the article.

**Key words:** consciousness, intuition, self-consciousness, underconsciousness, systematic analysis